# Təhsilin uğurları - gələcəyin güzgüsüdür

“Müəllim” sözü ərəb mənşəlidir və “elmi öyrədən, bilik verən” anlamını daşıyır. Ərəbcədə “ələm” kökündən yaranan bu söz, bütün islam dünyasında və Şərq mədəniyyətində, o cümlədən Azərbaycanda geniş yayılıb. Azərbaycan dilində bu termin, ilk növbədə rəsmi təhsil müəssisələrində - məktəb, ali məktəb və kurslarda dərs deyən şəxs mənasında işlədilir. Tarixən müəllim sözü həm də “ustad”, “müdrik”, “ağsaqqal”, “hidayətçi” kimi mənalar daşıyıb. Qədim Şərqdə müəllimlik müqəddəs sənət hesab olunub, müəllimlərə xüsusi hörmət və etimad göstərilib.

Müəllim peşəsi minilliklər boyu bəşəriyyətin inkişafında aparıcı rol oynayıb və bu gün də öz əhəmiyyətini itirmir. Tarixən müəllimlər bilik, tərbiyə və dəyərlərin yeni nəsillərə ötürülməsində ən vacib vasitəçi olublar. Müəllim anlayışı yalnız riyazi, təbiət elmləri və ya humanitar fənlərin tədrisini deyil, eyni zamanda şəxsiyyətin formalaşması, vətəndaşlıq mövqeyinin inkişafı, mənəvi keyfiyyətlərin aşılanması və insan münasibətlərinin düzgün qurulmasını da ehtiva edir. Azərbaycanın klassik maarifçilərindən Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Abdulla Şaiq, Mirzə Fətəli Axundzadə və digərləri müəllim missiyasını xalqın gələcəyi ilə bir tutublar. Onlar üçün müəllimlik bir peşə deyil, ömürlük missiya və mənəvi borc kimi dəyərləndirilib.

Müasir dövrdə müəllimlik institutu dinamik cəmiyyətin ehtiyaclarına uyğun yenilənir. Qlobal texnoloji inkişaflar, yeni pedaqoji metodlar, rəqəmsal resursların artması müəllimin funksiyalarında müəyyən transformasiyalara səbəb olub. Lakin ənənəvi müəllim keyfiyyətləri - vicdan, səbr, həvəs, diqqət və şəfqət - dəyişməz qalır. Müəllim həm məktəb mühitində, həm də cəmiyyətin bütün təbəqələrində nüfuz və etimad simvoludur. Onun sözü, davranışı, insanlarla münasibəti minlərlə şagirdin, gəncin və bütövlükdə xalqın gələcəyinin formalaşmasında həlledici rol oynayır. Azərbaycanda müəllimə xüsusi ehtiram və hörmətlə yanaşılır, təhsil sisteminin dayağı kimi qəbul edilir. Bu baxımdan müəllimlik yalnız bir peşə deyil, həm də böyük ictimai və mədəni məsuliyyət daşıyan missiyadır.

Qəbələ rayonu təhsil sistemi ilə həmişə fərqlənmişdir. Qəbələ ziyalılarının uğurları təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarlarda da tanınmış və xalqına qürur və fəxarət hissi bəxş etmişdir. Bu uğurlar şagird-abituriyentlərin ilk uğurlarından ali məktəblərə qəbul imtahanlarında qazandıqları uğurlu nəticələrdən başlanır. Bu uğurlarla qəzetimizin bu nömrəsində oxucularımızı da tanış etmək istəyirik.

## Qəbələ rayonu üzrə 600-dən çox bal toplayan məktəbli-abituriyentlər

| Ad və soyad | Təhsil aldığı məktəb | Buraxılış imtahanı | Blok | Topladığı bal | Qrup |
|---|---|---|---|---|---|
| Rəşidov Aqil Elgün oğlu | Sənan Hacıyev adına Zalam kənd tam orta ümumtəhsil məktəbi | 244 | 374 | 618 | IV |
| Rzayeva Nuray Hüseyn qızı | Nic qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbi | 259 | 342 | 601 | III |
| Nüsürüyeva Nərgiz Qafur qızı | Vəndam qəsəbəsi Eldəniz Mehdiyev adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi | 286 | 338 | 624 | I |
| Qarayeva Nuranə Nəvai qızı | Vəndam qəsəbəsi Eldəniz Mehdiyev adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi | 238 | 367 | 605 | III |
| Əfəndiyev Yusif Mətləb oğlu | Vəndam qəsəbəsi Eldəniz Mehdiyev adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi | 244 | 363 | 607 | I |
| Pənahlı Nəzrin Pərvin | Vəndam qəsəbəsi Eldəniz Mehdiyev adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi | 268 | 372 | 640 | IV |
| Babayeva Mələkxanım Zöhrab qızı | Həmzəli kənd tam orta ümumtəhsil məktəbi | 258 | 370,3 | 628,3 | III |
| Babayeva Nuray Zahir qızı | Həmzəli kənd tam orta ümumtəhsil məktəbi | 268 | 339 | 607 | IV |
| Yusibli Ayxan Ayaz oğlu | Həmzəli kənd tam orta ümumtəhsil məktəbi | 240 | 361 | 601 | III |
| Əbdürrəhimova Türkan Cəmil qızı | Həmzəli kənd tam orta ümumtəhsil məktəbi | 278 | 330 | 608 | III |
| Qasımova Göyçək Səfixan qızı | Həmzəli kənd tam orta ümumtəhsil məktəbi | 237 | 371 | 608 | III |
| Rəhmli Aylin Vüqar qızı | Qəbələ şəhər Vahid Qəhrəmanov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi | 298 | 387 | 685 | III |
| Məmmədova Fatimə Elçin qızı | Qəbələ şəhər Vahid Qəhrəmanov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi | 290 | 382 | 672 | IV |
| Həmzəyeva Səma Vüqar qızı | Qəbələ şəhər Vahid Qəhrəmanov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi | 237 | 368 | 605 | III |
| Kərimova Nəzrin Dilqəm qızı | M. Əzizov adına Bılıx kənd tam orta məktəbi | 279 | 349 | 628 | I |
| Xankişiyeva Nigar Samir qızı | Ş. Bulqədirov adına 5 nömrəli tam orta ümumtəhsil məktəbi | 260 | 392,4 | 652,4 | III |
| Nəzirova Lalə İmran qızı | Ş. Bulqədirov adına 5 nömrəli tam orta ümumtəhsil məktəbi | 268 | 386 | 654 | IV |
| Rüstəmov Qadir Mübariz oğlu | Abrıx kənd tam orta ümumtəhsil məktəbi | 277,40 | 357,90 | 635,30 | I |
| Burzuyeva Aysel Eyvaz qızı | Əmirvan kənd tam orta ümumtəhsil məktəbi | 263 | 366,20 | 629.20 | I |
| Məmmədova Sudə Anar qızı | Pərviz Osmanov adına 2 nömrəli tam orta məktəb | 267 | 387 | 654 | IV |
| Məmmədova Damla Namiq qızı | Vəndam qəsəbə Elnur Bəşirov adına 3 nömrəli tam orta məktəb | 280 | 360,4 | 640, 4 | III |
| Mirzəliyeva Gülnar Ruslan qızı | Nicat Apayev adına 4 nömrəli tam orta ümumtəhsil məktəbi | 259 | 368 | 627 | III |
| Mirzəliyeva Gülay Sadiq qızı | Nicat Apayev adına 4 nömrəli tam orta ümumtəhsil məktəbi | 244 | 380 | 624 | III |
| Nəbiyev Ramil Səbuhi oğlu | Nicat Apayev adına 4 nömrəli tam orta ümumtəhsil məktəbi | 236 | 378 | 614 | III |
| Səfərli Emil Ceyhun oğlu | Nicat Apayev adına 4 nömrəli tam orta ümumtəhsil məktəbi | 281 | 329 | 610 | II |
| Pirvəliyeva Günəş Sabir qızı | İlham Kərimov adına Mirzəbəyli kənd tam orta ümumtəhsil məktəbi | 240 | 374 | 614 | IV |
| Yusifova Nərmin İlkin qızı | Tikanlı kənd tam orta ümumtəhsil məktəbi | 255 | 373 | 628 | IV |

# Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Bildiyimiz kimi, fevralın 21-i bütün dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən həmin tarixi gün elan edilib.

Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis olunması isə ulu öndər Heydər Əliyevin dilimizin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Bir xalqın varlığı, yaddaşı və ruhu onun dilində yaşayır. Ana dili-beşiyimizin başında pıçıldanan həzin layladan başlanan, anamızın nəfəsi kimi isti, torpağımızın ətri kimi doğma bir aləmdir. O, sadəcə ünsiyyət vasitəsi deyil, əsrlərin sınağından çıxıb gələn mənəvi irsimizdir.

Avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur. Bu əlamətdar gün dilimizin tarixi inkişaf yoluna nəzər salmaq, onun dövlət dili kimi mövqeyini və zənginliyini bir daha uca tutmaq üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan dilinin və əlifbasının inkişafında, onun dövlət dili statusunun möhkəmlənməsində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

2001-ci il 18 iyun Fərmanı ilə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərmana əsasən, ölkədə latın qrafikalı Azərbaycan əlifbasına tam keçid təmin edildi. 2001-ci il 9 avqust Fərmanı ilə Heydər Əliyevin imzaladığı digər Fərmanla avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi təsisi olundu.

Bu tarixi qərarlar nəticəsində avqustun 1-dən etibarən ölkə ərazisində bütün rəsmi kargüzarlıq, mətbuat və nəşriyat işləri tam şəkildə latın qrafikalı əlifba ilə aparılmağa başladı.

Bu gün də İlham Əliyevin rəhbərliyi ilə ana dilinin qorunması, saflığının saxlanılması və tətbiq dairəsinin genişləndirilməsi istiqamətində mühüm addımlar atılır. Azərbaycan dilinin elektron məkanlarda, müasir texnologiyalarda və beynəlxalq aləmdə layiqincə təmsil olunması üçün ardıcıl tədbirlər görülür

Ana dilini sevmək, onun saflığını qorumaq və gələcək nəsillərə zədələnmədən ötürmək hər bir azərbaycanlının mənəvi borcudur. 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü bizə bir daha xatırladır ki, dilimiz bizim milli qürurumuz, müstəqilliyimizin və birliyimizin rəmzidir.

**İlahə EYVAZLI.**

# Torpaqların konsolidasiyası mexanizminin yaradılması

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin



inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində “Torpaqların konsolidasiyası mexanizminin yaradılması və Qəbələ rayonunun pilot layihə olaraq tətbiq edilməsi” mövzusunda müşavirə keçirilmişdir. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan istifadəyə nəzarət şöbəsinin, Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Su İşləri İdarəsinin, Qəbələ Rayon İcra Hakimiyyətinin, Qəbələ SMSİİ-nin, Qəbələ DAİM -in, ƏMDX Qəbələ ərazi şöbəsinin, Qəbələ Sudan İstifadəedənlər Birliyinin əməkdaşlarının, pilot layihə ərazilərinə düşən kəndlərin İƏD üzrə nümayəndələrinin və bələdiyyə sədrlərinin iştirak etdiyi müşavirədə torpaqların konsolidasiyası sahəsində beynəlxalq təcrübənin, o cümlədən Türkiyə Respublikasının təcrübəsinin öyrənilməsi haqqında danışılmış, pilot layihələrin həyata keçirilməsi ilə bağlı görüləcək işlər müzakirə edilmiş, aidiyyəti dövlət qurumları arasında fəaliyyətin əlaqələndirilməsi, habelə ölkəmizdə torpaqların konsolidasiyası mexanizminin tətbiqi istiqamətində hüquqi, institusional və texniki məsələlər nəzərdən keçirilmişdir.